# DÖVLƏT BÖLMƏSİNİN MALİYYƏSİ

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Borclanmamağa üstünlük verərdim. Əvvəlcə borclanarsan, sonra yalvararsan.**

***Ernest Hemingway***

# DÖVLƏT BÖLMƏSİ

- Ölkədən ölkəyə fərqlənən dövlət bölməsini təşkil edən qurumları Azərbaycanda aşağıdakı 3 hissəyə ayırmaq mümkündür:
  - İdarəetmə qurumları;
  - Dövlət sahibkarlıq qurumları;
  - Digər qurumlar.

# DÖVLƏT BÖLMƏSİ

- İdarəetmə qurumları:
  - Mərkəzi idarəetmə qurumları;
  - Yerli idarəetmə qurumları.
- Dövlət sahibkarlıq qurumları:
  - İstehsal müəssisələri;
  - Maliyyə müəssisələri.
- Digər qurumlar:
  - Büdcədənkənar fondlar;
  - Təsərrüfat hesablı qurumlar.

# İDARƏETMƏ QURUMLARI

- ***Mərkəzi idarəetmə qurumları***
  - Dövlət hüquqi şəxs statusuna malik qurumlardır.
  - Milli Məclis, Prezident Administrasiyası, Nazirlər Kabineti, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Hesablama Palatası, bütün nazirliklər, dövlət komitələri və.s aiddir.
- ***Yerli idarəetmə qurumları***
  - Cəmiyyətin ehtiyaclarını yerində ödəmək məqsədi ilə formalaşdırılan idarəetmə qurumlarıdır.
  - Azərbaycanda bu qurumlara yerli icra hakimiyyətləri, bələdiyyələr və onlara bağlı qurumlar aiddir.
  - Bələdiyyələr öz gəlir və xərci olan büdcələrə malik olmaqla yanaşı, onlara dövlət büdcəsindən də pay ayrılır.

# DÖVLƏT SAHİBKARLIQ QURUMLARI

- Bazar iqtisadiyyatında əmtəə və xidmətlərin böyük əksəriyyəti istehlakçıların seçimləri əsasında formalaşan bazar tələbi və bunun yaratdığı resurs bölgüsünə görə ***özəl bölmə tərəfindən istehsal edilir***.
- Ancaq, məsələn, milli müdafiə ilə bağlı əmtəə və xidmətlərin bazar mexanizmi vasitəsilə istehsal edilməsi hər zaman mümkün deyildir.
- Həmçinin avtomobil yolu, dəmiryolu, su bəndi kimi bəzi infrastruktur investisiyaları bunları həyata keçirənə deyil, əsasən bunlardan istifadə edənə fayda verir.
- Bu və digər oxşar hallarda ***dövlət bölməsi meydana çıxaraq aradakı boşluğu doldurur***.

# DÖVLƏT SAHİBKARLIQ QURUMLARI

- Hər hansı bir müəssisənin ***dövlət sahibkarlıq qurumu sayılması üçün 3 əsas kriteriyaya cavab verməsi zəruridir***:
  - Dövlət (ya da xəzinə) ya bu müəssisənin ən böyük ortağı olmalıdır, ya da idarəetmə və ya nəzarətini əldə saxlamalıdır.
  - Müəssisə fərdlərə və qurumlara satılan əmtəə və xidmətlərin istehsalını həyata keçirməlidir.
  - Müəssisənin əsas məqsədi mənfəətini maksimumlaşdırmaq deyil, ictimai fayda ilə mənfəətlilik arasında optimal tarazlığı saxlamaqdır.
- Dövlət sahibkarlıq qurumları, təbii inhisarlardan yaradılmış inhisarlara, əmtəə istehsal edən müəssisələrdən (qida, geyim, maşın və avadanlıq istehsal edən müəssisələr kimi) xidmət istehsal edən müəssisələrə (havayolu, dəmiryolu, turizm müəssisələri) qədər çox müxtəlif sahələrdə qurulur.
- Səmərəsiz fəaliyyət göstərən dövlət sahibkarlıq qurumları adətən ***özəlləşdirmə*** yolu ilə özəl bölməyə ötürülür.

# DİGƏR QURUMLAR

- ***Büdcədənkənar fondlar***
  - Müəyyən bir dövlət gəlirinin müəyyən bir dövlət xərcinə ayrılması məqsədi ilə qurulur.
  - Azərbaycanda büdcədənkənar fondlara daxildir:
    - *Azərbaycan Dövlət Sosial Müdafiə Fondu*: İşçi və işəgötürənlərdən yığılan pullarla pensiyaçılara aylıq pensiyalar ödəyən və dövlət tərəfindən idarə edilən fonddur.
    - *Azərbaycan Dövlət Neft Fondu*: Azərbaycan Dövlətinin neft gəlirlərinin toplandığı və strateji layihələrin maliyyələşməsinə sərf edilən fonddur.
- ***Təsərrüfat hesablı qurumlar***
  - Hər hansı bir nazirlik və komitəyə bağlı olan, müəyyən bir dövlət xidmətini həyata keçirmək məqsədilə qurulan, öz gəlir mənbələri olan, bu gəlirlərini xərcləmək səlahiyyəti olan dövlət qurumlarıdır.
  - Dövlət universitetləri, dövlət xəstəxanaları, dövlət mətbuat orqanları və.s aiddir.

# DÖVLƏT BÖLMƏSİ MALİYYƏSİNİN STRUKTURU



# DÖVLƏT BÖLMƏSİ MALİYYƏSİNİN STRUKTURU

## Dövlət büdcəsinin gəlirləri



# DÖVLƏT BÖLMƏSİ MALİYYƏSİNİN STRUKTURU

## Dövlət büdcəsinin xərcləri

| Xərclərin funksional təsnifatı |
|---|
| Ümumi dövlət xidmətləri |
| Müdafiə |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq |
| Təhsil |
| Səhiyyə |
| Sosial müdafiə və sosial təminat |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət |
| Mənzil və kommunal təsərrüfatı |
| Yanacaq və enerji |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi |
| Sənaye, tikinti və faydalı qazıntılar |
| Nəqliyyat və rabitə |
| İqtisadi fəaliyyət |
| Əsas bölmələrə aid edilməyən xidmətlər |

# DÖVLƏT BÖLMƏSİ MALİYYƏSİNİN STRUKTURU

## 2015-ci il üzrə icmal büdcənin strukturu



### İcmal büdcənin gəlirləri

- Dövlət büdcəsinin gəlirləri
- Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri
- Dövlət Neft Fondunun büdcəsinin gəlirləri
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirəri



### İcmal büdcənin xərcləri

- Dövlət büdcəsinin xərcləri
- Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri
- Dövlət Neft Fondunun büdcəsinin xərcləri
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri
- Xarici kreditlər hesabına maliyyələşən layihələr üzrə xərclər



### İcmal büdcənin kəsiri və onun maliyyələşdirmə mənbələri

*Xarici kreditlərlər hesabına maliyyələşən layihələr üzrə xərclər

*Daxili və xarici borclanma

*Özəlləşmədən daxilolmalarxərcləri

*Xarici qrantlar

*Vahid xəzinə hesabının qalığı

# DÖVLƏT BÖLMƏSİ MALİYYƏSİNİN STRUKTURU

***Dövlət bölməsinin maliyyə tarazlığı***

=

İcmal büdcə tarazlığı

+

Dövlət sahibkarlıq müəssisələrinin büdcə tarazlığı

# YOXLAMA SUALLARI

1. Dövlət idarəetmə qurumları haqqında bildiklərinizi nümunələr əsasında açıqlayın.
2. Dövlət sahibkarlıq müəssisələri hansı məqsədlərlə qurulur?
3. Dövlət sahibkarlıq müəssisələrinin əsas xüsusiyyətlərini izah edin.
4. Özəlləşdirmə nədir?
5. Büdcədənkənar fondlar hansı məqsədlə qurulur?
6. Təsərrüfat hesablı qurumlar haqqında məlumat verin.
7. Dövlət büdcəsinin gəlir strukturunu açıqlayın.
8. Dövlət büdcəsinin xərc strukturunu açıqlayın.
9. İcmal büdcə nədir? Onun strukturunu açıqlayın.
10. Dövlət bölməsinin maliyyə tarazlığını açıqlayın.

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). “Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması”, İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Agnes Benassy-Quere və.b., (2010). “Economic Policy: Theory and Policy”. Oxford University Press.
- Qreqori Mənkyu (2007), “Ekonomiksin əsasları”, Bakı: CBS Polygraphic Production.
- Rasim Həsənov (2009), “İqtisadi siyasət: metodologiya və praktika”, Bakı: “İqtisad Universiteti” nəşriyyatı.